# Qəbələdə «Tarla Günləri» tədbirinin bağlanış mərasimi

Avqustun 28-də «Gilan Holdinq» Aqrokompleksi Qəbələ MMC-nin ərazisində respublikamızda ilk dəfə






may ayının 2-də açılış mərasimi olmuş «Tarla günləri»nin bağlanış mərasimi keçirilmişdir. Mərasimdə aqrar sektora daxil olan və son yenilikləri və imkanları özündə əks etdirən 300-ə yaxın yerli və xarici şirkətin, fermer təsərrüfatının 2000-dən çox nümayəndəsi iştirak edirdi.

Tədbiri giriş sözü ilə Azərbaycan Pespublikası kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev açmışdır. İ. Quliyev tədbir iştirakçılarını salamlamış, iştirakçıların hamısına təşəkkürünü bildirmişdir. Nazir müavini çıxış edərək tədbirin keçirilməsində məqsəd və vəzifələrdən söhbət açmış, açılış mərasimindən sonra görülən işlərdən və əldə edilən uğurlardan danışmışdır.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev belə aktual bir tədbirin Qəbələdə təşkilinə görə Respublika Kənd Təsərrüfatı Nazirliyinə və bütün təşkilatçılara minnətdarlığını bildirmiş və qonaqları salamlamışdır. Daha sonra cənab başçı kənd təsərrüfatına göstərilən dövlət qayğısından, ölkə başçısı İlham Əliyevin sahənin inkişafı üçün həyata keçirdiyi tədbirlərdən, kənd təsərrüfatı rayonu kimi Qəbələdə əldə olunan uğurlardan danışmışdır. Çıxışının sonunda isə aqrar bölmənin inkişafında Qəbələ rayonu fermerlərinin, sahibkarların əlindən gələni əsirgəməyəcəklərini nəzər-diqqətə çatdırmışdır.

Tədbirdə «Gilan Holdinq» kənd təsərrüfatı sektorunun müdiri, təşkilat komitəsinin sədri Əbülfəz Məlikov, Kimya Prosesləri institutunun direktoru, akademik Vaqif Abbasov çıxış etmişlər.



Çıxışlarda qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2015-ci il tarixdə imzaladığı sərəncamla 2015-ci il Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilmişdir. Sərəncamın icrası məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi silsilə tədbirlər keçirilməsini davam etdirir. Bu il may ayının 2-də Qəbələ rayonunda dünya təcrübəsində geniş tətbiq olunan kənd təsərrüfatının inkişafına öz töhfəsini verən «Tarla Günləri» tədbirinin açılışından ötən müddət ərzində cənab Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla bağlı kənd təsərrüfatı məhsulları istehsalında dinamik inkişaf təmin olunmuşdur. Sözün əsl mənasında kənd təsərrüfatının inkişafına dövlət dəstəyi xeyli gücləndirilmiş, sahənin keyfiyyətcə yeni mərhələyə keçilməsinin təməli qoyulmuşdur. Nəticədə əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə tədbirlər davam etdirilir. İl ərzində cənab Prezidentin sərəncamları ilə fermer və sahibkarlara güzəştli kreditlərin verilməsi, «Aqrolizinq» Açıq Səhimdar Cəmiyyəti tərəfindən, gübrə, texnika, damazlıq mal-qara alınması, bu sahənin inkişaf etdirilməsi üçün görülən digər tədbirlər öz bəhrəsini verməkdədir.



Çıxış edənlər daha sonra «Tarla günləri»nin keçirilməsinin əhəmiyyətindən danışmışlar. Qeyd olunmuşdur ki, belə günlərin keçirilməsində məqsəd aqrar bölmədə yaranan yenilikləri, əldə olunan nailiyyətləri təqdim etməklə biznesmenləri, istehsalçıları və ixracatçıları bir araya gətirməkdir. Əsas üstünlük isə aqrar bölmədəki texnologiyaya və sənayedəki yeniliklərə üstünlük verilməsidir. Eyni zamanda belə bir tədbir müştərilərlə üzbəüz görüşmək, önəmli məsələlərin müzakirəsi və fikir mübadiləsi aparmaq, daha konkret hədəf auditoryası yaratmaq, məhsul və xidmətləri müqayisəli təqdim etmək və s. kimi imkanlar yaradır. Bir növ hər kəs üçün sərbəst mühitə imkanı açır.

Mərasimin iştirakçıları çıxışlardan sonra kənd təsərrüfatı məhsullarının, bitki dərmanlarının, kənd təsərrüfatı texnikalarının, gübrələrin, qida məhsullarının, şirə və içkilərin, laborator avadanlıqlarının, heyvandarlıq və bitkiçillik məhsullarının sərgiləri ilə tanış olmuşlar.

Kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev «Tarla Günləri» tədbirinin bağlanış mərasismində yekun nitqi söyləsmiş və tədbir iştirakçılarını «Qafqaz» sport hotelə nahar fasiləsinə dəvət etmişdir.

**Nadir ATAKİŞİYEV,**
**Fotolar İ. Vəlizadənindir.**